Azərbaycan.- 2021.- 11 iyun. S. 7.

# Yevlaxın Salahlı kəndində şəhidlərin xatirəsinə abidə ucaldılıb

Yevlax rayonunun Salahlı kəndində Birinci və İkinci Qarabağ müharibələrində şəhid olmuş kənd sakinlərinin xatirəsinə Şəhidlər abidəsi inşa edilmişdir.




Açılış mərasimində rayon rəhbərliyi, hüquq mühafizə orqanlarının nümayəndələri, şəhid ailələri və qazilər, müharibə veteranları, kənd sakinləri iştirak etmişlər.

Tədbirdə çıxış edənlər Azərbaycan Ordusunun qüdrətindən, hərbçilərimizin döyüşlərdə göstərdikləri qəhrəmanlıqlardan, xalqla ordunun birliyindən danışmış, Zəfər tarixini yazan vətən oğullarının Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqlarını bildirmişlər.

Onu da qeyd edək ki, rayonun digər kəndlərində də belə abidələrin tikintisinin aparılması nəzərdə tutulur.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***